**Milli Dirçəliş Hərəkat Partiyası**

**Əhəmiyyətli uçot siyasəti və izahlı qeydlər**

**1.Giriş**

Hazırkı maliyyə hesabatları 31 dekabr 2024-cü ildə başa çatan il üzrə "Siyasi partiyalarda sadələşdirilmiş mühasibat uçotunun aparılması Qaydaları"na uyğun olaraq Milli Dirçəliş Hərəkat Partiyası (bundan sonra "Partiya") üçün tərtib edilmişdir.

**2.Partiya haqqında ümumi məlumat**

Partiya Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 31 may 2011-ci il tarixində 55 saylı şəhadətnamə ilə qeydiyyata alınmışdır.

Mülkiyyət növü: Xüsusi mülkiyyət

Qanuni təmsilçisi (Sədr): Quliyev Fərəc İbrahim oğlu

Partiya Bakı şəhəri Vergilər Departamenti tərəfindən 18.04.2012-ci il tarixdə 1502049881 saylı VÖEN ilə qeydiyyata alınmışdır.

Partiyanın nizamnamə üzrə əsas fəaliyyəti siyasi fəaliyyətdən ibarətdir.

Hesabat dövrü ərzində işçilərin orta sayı 0 olmuşdur.

**3.Partiyanın hüquqi ünvanı**

AZ1122 Bakı şəhəri, Şəfayət Mehdiyev küçəsi 177

4.Əməliyyat valyutası

Maliyyə hesabatlarında məbləğlər Azərbaycan manatı (AZN) ilə ifadə olunmuşdur

**5.Uçot siyasətinin təqdimatı**

Bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə olunan əsas uçot siyasəti müddəaları aşağıda göstərilmişdir. Göstərilən uçot siyasəti müddəaları bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

**6.Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları**

Partiyada mühasibat uçotu Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericiliyinə uyğun olaraq aparılır. Bu maliyyə hesabatları mühasibat

uçotunun hesablama metodu əsasında hazırlanmışdır. Aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir.

**7.Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər)**

Torpaq, tikili və avadanlıqlar inzibati məqsədlər üçün istifadə olunan və gələcəkdə icarəyə verilməsi nəzərdə tutulan, bir ildən artıq müddət ərzində istifadə edilməsi gözlənilən uzunmüddətli aktivlərdir. Əsas vəsaitlər əldə edilərkən ödənilmiş dəyər əsasında uçota alınır.

**8.Amortizasiya**

Torpaq üzrə amortizasiya hesablanmır. Digər əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metodu ilə hesablanır. İllik amortizasiya dərəcələri aşağıdakı kimidir:

- Binalar və qurğular: 20 il və ya illik 7%-dək
- Maşın və avadanlıqlar: 5 il və ya illik 20%-dək
- Nəqliyyat vasitələri: 5 il və ya illik 25%-dək
- Sair əsas vəsaitlər: 5 il və ya illik 20%-dək

Əsas vəsaitlərin faydalı istismar müddətinə və ləğv edilmə dəyərinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda düzəlişlər edilir. Əsas vəsaitlərin xaricolmasından yaranan mənfəət və ya zərər satış qiyməti ilə balans dəyərinin müqayisəsi əsasında müəyyən edilir və maliyyə nəticələri haqqında hesabatda əks etdirilir.

**9.Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə kassada olan nəğd pul, bank hesablarındakı vəsaitlər, yolda olan köçürmələr və ödəniş müddəti üç aydan artıq olmayan yüksək likvidli investisiyalar daxildir.

**10.Kreditlər və borclar**

Kreditlər və borclar ilkin olaraq ədalətli dəyər üzrə tanınır. Öhdəliklərin ödənilmə müddəti balans tarixindən etibarən bir ildən artıq olmadıqda, onlar qısamüddətli öhdəliklər kimi təsnif edilir.

**11.Gəlirin tanınması**

Gəlir aktivlərin artması və ya öhdəliklərin azalması nəticəsində iqtisadi səmərənin artması baş verdikdə tanınır. Dövlət büdcəsindən ayrılan vəsaitlər və alınan yardımlar vergiyə cəlb olunmur. Digər gəlirlər hesablama metodu əsasında tanınır.

**12.Xərclərin tanınması**

Xərclər layihələr və təsdiq olunmuş büdcələr çərçivəsində tanınır. Layihə icra olunmadığı halda daxil olan vəsaitlər xərc kimi tanınmır.

**Gəlirlər və xərclər (31.12.2025)**

**13.Gəlirlər: 14500.00 AZN**

| | |
|---|---|
| Nəqliyyat vasitəsinin satışı (Marka MAZDA 6 DQN 99 AA 468) | 14500.00 |

**14.Xərclər: 14438.94 AZN**

| Xərclərin açıqlaması Maddələr İzahlar | Məbləğ |
|---|---|
| Sərhəd hərəkatının anım günü və kitab təqdimatı | 2520.00 |
| Telefon xərci | 91.2 |
| MDHP.az saytına çəkilən xərc hostinq 4 rüb (rüb 147.2) | 588.8 |
| MDHP.az saytına çəkilən xərc domen | 20 |
| İnternet xərci | 360 |
| Mobil rabitə xərci | 245 |
| Enerji xərci | 227.40 |
| Audit xərci | 200 |
| Ofis ləvazimat xərci | 96.69 |
| Ödənişli təhsil haqqına çəkilən xərc | 1250.00 |
| İcarə haqqı | 1030.26 |
| Reklam xərcləri sosial şəbəkə | 728.59 |
| Bələdiyyə seçkilərində Milli Dirçəliş Hərəkat Partiyasından namizədliyini vermis 25 (iyirmi beş ) nəfər üzvünün təlimat üçün gəliş gedişi, sənədlərin hazırlanması üçün çəkilən xərclər | 4200.00 |

| | |
|---|---|
| Ofis təmizliyinə çəkilən xərc | 600 |
| Partiyanın təmir təchiz elektronika xərcləri | 2281 |

**Partiyanın sədri:** **Quliyev Fərəc İbrahim oğlu**